UOT 336.1:336.22
JEL H20

SÜLEYMANOV Q. S., Professor
ADNSU
ƏLİYEVA F. M.
ADNSU

VERGİ MƏDƏNİYYƏTİ ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ, ONUN AZƏRBAYCANDA TƏTBİQİ İMKANLARI VƏ İQTİSADİ NƏTİCƏLƏRİ

Xülasə

Tədqiqatın məqsədi- Vergi sistemi inkişaf etmiş ölkələrin vergi mədəniyyəti üzrə apadığı islahatlara əsaslanaraq ölkəmizdə vergi mədəniyyətinin yüksəldilməsinə nail olmaqdır.

Tədqiqatın metodologiyası- dünyanın aparıcı ölkələrinin vergi mədəniyyətinin yüksəldilməsi üzrə tətbiq etdiyi iqtisadi, sosial və psixoloji mexanizmlərdir.

Tədqiqatın nəticələri- vergi mədəniyyətinin yüksəldilməsində dünya təcrübəsinin tətbiq etdyi metodologiyanın Azərbaycanın vergi sistemində tətbiqi, ÜDM də və sonda isə büdcə gəlirinin artmasına səbəb olar.

Açar sözlər- vergi mədəniyyəti, vergi sistemi, büdcə, vergi ödəyiciləri, vergi orqanları, vergi qanunları.

GİRİŞ

Hər bir dövlətin gəlirlərinin əsas mənbəyini vergilər təşkil edir. Bu səbəbdən də dövlətlər özünün vergi sisteminin forma və keyfiyyətini yaxşılaşdırmağa çalışırlar. Vergidən yayınma formasında verginin ödənilməməsi ən geniş yayılmış vergitutma problemidir. Lakin, dövlətlər sağlam vergi rejimi və vergi mədəniyyətinin təmin edilməsi yolu ilə bu problemi aradan qaldıra bilər. Bununla yanaşı dövlətin vergi rejimi də mütləq vergi mədəniyyətinə uyğun olmalıdır.

Məhz bunun nəticəsidir ki, ölkəmizdə də "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində "Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan" hazırlanmışdır ki, bu planın da missiyalarından biri əhalinin vergi mədəniyyətinin yüksəldilməsi və vergi ödəmə vərdişinin cəmiyyətin normasına çevrilməsinə nail olunmasıdır.

Vergi mədəniyyəti və vergi davranışının mahiyyəti

Tədqiqatlar göstərir ki, vergi mədəniyyəti ümumi mənada, müəyyən bir ölkədə mövcud vergi davranışını və vergi normalarını ifadə edir. Vergi ödəyicilərinin davranışı vergi mədəniyyətinin əsasını təşkil edir. Alman professor Dr Birger Nerre vergi mədəniyyətini "vergitutma sisteminin, onunla bağlı olan bütün qurumların bütövlüyü və onların mədəniyyəti daxilində, qarşılıqlı əlaqələr daxil olmaqla, formalaşdırılması" kimi təsvir edir.Hər bir ölkənin iqtisadi gücü, əsasən, büdcəyə daxil olan vəsaitin həcmi ilə müəyyən edilir[6]. Büdcənin formalaşmasında fiziki və hüquqi şəxslər tərəfindən ödənilən vergilər mühüm rol oynayır. Hər bir şəxs qazandığı vəsaitdən qanunla qəbul olunmuş qaydada vergi ödəməlidir. Vergi intizamı və vergi mədəniyyəti olmayan ölkədə buna nail olmaq çətindir. Vergi yığımına İnkişaf etmiş ölkələrdə (İEÖ) daha ciddi yanaşılır və bu işdə günahkar şəxslər məsuliyyətə cəlb olunur. Dünyanın ən məşhur ulduzları- italiyalı Sofi Loren, Luçano Pavarotti, Çarli Çaplin vergi ödəmədiklərinə görə məsuliyyətə cəlb ediliblər. Sofi Loren vergiyə görə hətta həbs edilib.

Vergi mədəniyyəti iki hissədən ibarətdir:

1.Vergi mənəviyyatı. Bu vətəndaşların vergilərin ödənilməsində istəklərinin səviyyəsini göstərir.

2.Vergi intizamı. Bu vətəndaşların vergi qaydalarına əməl etməsi imkanlarını ifadə edilir.

Vergi ödəyicilərinin vergiyə münasibəti iki formada özünü göstərir [6]:

Passiv forma. Bura daxildir:

1.Vergi gəlirlərini dolayı yolla azaldan davranışlar(əsasən qanunla qadağan olunmayan yollardan istifadə etməklə).

2.Vergidən qaçma.

3.İş yerində səmərəsizlik.

4.İstehlakı azaltmaq.

Aktiv forma. Bura daxildir:

1.Qeyri qanuni yollar.

2.Vergidən yayınma.

3.Vergi ödəməkdən imtina.

Bu baxımdan vergi mədəniyəti üç davranışda özünü göstərir[6]: 1.Vergiyə uyğunlaşma.

2.Vergidən azadolma.Yəni, qanuna uyğun olaraq müvafiq sahələrdə vergilərin azaldılması və s.

3.Vergidən yayınma. Yəni,qeyri qanuni yollarla vergidən qaçma.

Vergidən yayınmanın səbəblərini dörd qrupa bölmək olar [6]:

1.Mənəvi səbəblər: Bu səbəblər iki amildən asılıdır.Birinci halda daha çox vəsait yığmaq məqsədilə vergidən yayınma. İkinci hal vergi sistemində qəbul olunmuş qanunlardandan asılıdır.

2.Siyasi səbəblər: Dövlətin vergilərdən yalnız xərclərin ödənilməsi üçün deyil,həm də sosial-iqtisadi siyasət aləti kimi istifadə etməsi.

3.İqtisadi səbəblər: Vergi ödəyicisinin maliyyə vəziyyətindən asılı olan səbəblər,vergi yükünün dügün bölüşdürülməməsi və s.

4.Hüquqi səbəblər: vergi sistemində mürəkkəbliyin effektiv vergi nəzarətinə mane olması və nəticədə vergidən yayınma hallarının çoxalması

Araşdırmalar göstərir ki, vergi mədəniyyətinin inkişafına təsir edən amilləri aşağıdakı kimi təsnif oluna bilər [6]:

1. İqtisadi vəziyyət.İqtisadi vəziyyətin ağırlığı həm vergi ödəyənlər həm də vergi yığanlar üçün ciddi problemlər yaradır. Bu halda ərzaq və qeyri ərzaq məhsulları bahalaşır,əhali əlində olan cüzi miqdarda gəlirini vergidən gizlətməyə çalışır.
2. Tarixi şərait.Tarixi şərait ölkənin iqtisadiyyatına və mədəniyyət səviyyəsinə ciddi təsir göstərir.
3. Sosial mühit.Ailə,kollektiv və cəmiyyətin vergi mədəniyyətinin inkişafına təsiri.
4. Vergi sistemi. Vergi mədəniyyətinin inkişafı üçün vergi sistemi də mükəmməl olmalıdır.
5. Bioloji sistem.Şəxsin genetik xüsusiyyətləri,mədəni səviyyəsi vergi mədəniyyətinin formalaşması üçün mühüm şərtlərdəndir.

Vergi mədəniyyətinin elementləri isə aşağıdakılardır [8]:Ölkənin iqtisadi inkişafı; ölkə vətəndaşlarının sosial vəziyyəti; ölkədə təhsilin səviyyəsi; tarixi təcrübə; ailənin məsələyə münasibəti; vergi sisteminin faktorları.\

Araşdırmalar göstərdi ki,vergi etikasını vergi mədəniyyəti vasitəsi ilə qiymətləndirən modelləri mövcuddur [6]. Bu modellərin əsa elementlərinə daxildir :Mədəni fərqlər (etnik, irqi, milli, həyat tərzi və s.); vergi sisteminin elementləri (vergi növləri, idarəetmə strukturu, vergi qanunları və cəzalar); təşkilatlar (Maliyyə və ya Vergilər Nazirliyi, vergi idarəsi və s.);iqtisadi amillər (gəlir səviyyəsi, gəlirlərin bölüşdürülməsi, inkişaf); mədəniyyət; ailə vəziyyəti ; din; dövlət xərclərinin miqdarı; təhsil; peşə; demoqrafik dəyişənlər; iş statusu (işsiz, biznes sahibi, təqaüdçü).

Vergi mədəniyyətinin yüksəldilməsinin başlıca istiqamətləri

İnkişaf etmiş ölkələrin vergi və vergitutma sahəsində mövcud təcrübəsi göstərir ki, vergi sistemində ortaya çıxan zəif cəhətlərin üzərində çalışmaq,tədbirlər planları hazırlamaq yolu ilə vergi mədəniyyətinin artılmasına nail olmaq olar. Vergi mədəniyyətinin artırılması üçün aşağıdakı işlərin həyata keçirilməsi vacibdir [6]:

- ✓ Vergi qanunvericiliyinin normativ-hüquqi aktlarını vətəndaşlara çatdırmaq.
- ✓ Vətəndaş və dövlətin qarşılıqlı əlaqəsini yaxşılaşdırmaq.
- ✓ Vergi prosedurlarının keyfiyyətini qaldırmaq.
- ✓ Vətəndaşların gözündə güclü dövlət imici formalaşdırmaq.
- ✓ Vergi ödəyicilərinə yüksək xidmət göstərmək.
- ✓ Vergi orqanı işçilərinin prestijlərini daha da qaldırmaq.

Dünya ölkələrində vergi mədəniyyətinə yanaşmalar.

Qırğızıstanın vergi mədəniyyəti. Bişkekdə yaşayan 500 vergi ödəyicisi ilə bağlı bir sorğu keçirildi. Bu araşdırmaya görə vergi ödəyicilərinin aşağı vergi mədəniyyətinə təsir edən mühüm amillər kimi aşağıdakılar göstərilir [3,5,8]:

1. Dövlətə etibar edilməməsi.
2. Ödənilən vergilərin qarşılığında ictimai xidmətlər olaraq geri dönməməsi və ya ictimai xidmətlərin aşağı səviyyədə olması.
3. Vergi qanunlarının quruluşun mürəkkəbliyi.
4. Vergi sisteminin ədalətsizliyi və yetəri qədər şəffaf olmaması.

Hindistanda "Niyə vergi ödəmirsən?" sorğusunun nəticələri aşağıdakı səbəblərlə əlaqələndirilir [6]**:**

- ABŞ və Böyük Britaniya kimi ölkələrdə insanlar tibbi müalicə kimi sosial təminat alırlar. Amma Hindistan bu cür imkanları təklif etmir.
- Hindistan bəzi inkişaf etmiş ölkələrdə olduğu kimi sosial təminat və pulsuz tibbi xidmətlər təqdim etmir.
- Hökumətin əsas xərcləri Milli Müdafiə, İnfrastruktur İnkişafı və s. üzrə çəkilməlidir. Vergilər hökumət tərəfindən məşğulluq proqramları daxil olmaqla müxtəlif rifah proqramlarını həyata keçirmək üçün istifadə olunur. Inzibati xərclər Hökumət tərəfindən ödənilir


Bununla yanaşı dünyanın bəzi ölkələrinin vergi mədəniyyətinə yanaşmaları cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1.Bəzi ölkələrdə vergi mədəniyyətinə yanaşmalar

Bostwana	Amerika	Cənubi Afrika	İsveçrə	Belçika	İspaniya	Avstraliya	İsveçrə
Dövlətə,ədalətə,ictimai qurumlara güvən artdıqca vergiyə uyğunlaşma artmaqdadır. Fərdin dövləti necə qəbul etməsi vergini niyə ödəməsinin önəmli göstəricisidir			Altmədəniyyətlərə sahib olan bu ölkələrdə ölkə daxilində mövcud mədəniyyət fərqləri parlament və hökümətə güvən,demoqrafik və sosial amillər də vergi mədəniyyətinin formalaşmasında mühüm rol oynayır.			50-64 yaş qrupunun vergi mədəniyyəti statistika 30 yaşınadək olanlardan daha möhkəm və davamlıdır.Təqaüdçülərin vergi mədəniyyəti daha yüksəkdir(bir çox ölkələrdə).	

Mənbə [6]-dan istifadə etməklə müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1-də göründüyü kimi, gəlirlərin paylanması yaxşılaşdıqca vergi mədəniyyəti artır. Belə ki, İEÖ-də vergi mədəniyyəti daha yüksəkdir. Təhlillər göstərir ki, Avropa İttifaqının(Aİ) tərkibinə əvvəl daxil olmuş inkişaf etmiş ölkələrdə (Skandinaviya ölkələrində) ÜDM-da vergi yükünün xüsusi çəkisi (42-45%), Aİ - na yeni daxil olmuş ölkələrə nisbətən (30-32%) daha yüksəkdir. Bu daha yüksək vergi dərəcələrin tətbiq olunmasının nəticəsidir. Məhz bunun nəticəsidir ki, inkişaf etmiş ölkələrdə (İEÖ) sosial müdafiə ilə bağlı dövlət xərcləri yüksəkdir, insan kapitalının artmasına xidmət edən yüksək təhsil və tibbi sığorta standartları mövcuddur, innovasiya texnologiyalarının inkişaf etdirilməsi ilə bağlı xərclər xeyli yüksəkdir. Aydındır ki, dövlətin bu sahələrdə tələb olunan büdcə vəsaitləri daha yüksək vergi daxilolmalarının hesabına toplanılır [6]. İEÖ-də vergi mədəniyyətinin yüksəldilməsi üzrə aparılmış tədbirlərin nəticəsidir ki, İsveçdə keçirilmiş, "əgər imkan olsa gəlirinizi vergidən gizlədərsinizmi?" sorğusunun nəticəsi aşağıdakı şəkildə öz əksini tapmışdır (şəkil 1).



Şəkil 1. İsveçdə keçirilmiş, "əgər imkan olsa gəlirinizi vergidən gizlədərsinizmi?" sorğusunun nəticələri (faizlə).Mənbə [8]-dən istifadə etməklə müəllif tərəfindən tərtib edilmişdir.

Bütovlükdə isə vergi mədəniyyəti üzrə dünya ölkələrinin təcrübəsinin araşdırılması onu göstərir ki, Avropa dövlətləri dünyada ən yüksək vergi mədəniyyətinə malikdir. Məhz buna görə Avropanın vergi mədəniyyətinə yanaşması xüsusi əhəmiyyət daşıyır. Avropanın vergi mədəniyyətinin başlıca hədəfləri aşağıdakılardır [4]:

1. Bu günün gəncləri sabah vergi ödəyicilərdir.
2. Buna görə də vacibdir uşaqları,gəncləri vergi ödəməyin vacibliyindən və məqsədindən xəbərdar edərək, "ödəmək məcburiyətində" deyil, "ödəməyə hazır olmağı" yetişdirmək.
3. Vaxt keçdikcə vergi ödəyicilərinin sayının artması təmin edilməlidir.

Məhz buna görə də vergi mədəniyyətinin formalaşması üzrə Avropa Birliyinin pilot layihəsi (Taxedu portalı. Portalın adı - TAXEDU - "Vergi" və "Təhsil" sözlərindən yaranır.) mövcuddur. Bu layihənin məqsədi gənc avropalı vətəndaşlarına vergi və verginin onların həyatına necə təsir edəcəyini öyrətməkdir. Avropalı gənclər müxtəlif formalarda vergi və onunla əlaqəli məsələlər (vergidən yayınma və s.) İlə əyləncəli və cəlbedici bir şəkildə öyrənə bilməsi üçün məlumatlar, e-Learning materialları və mikroöyrənmə (microlearning) klipləri ilə ötürülür[4].

Portalın məlumatları üç yaş qrupuna hədəflənir:

Birinci qrup uşaqlar - vergilərin izahı və faydaları.Avropada vergi haqqında bəzi biliklər daxildir. Dil sadə və əlçatandır.

İkinci qrup yeniyetmələr - vergilərin təsviri və faydaları. Bu bölmədə uşaqlar üçün daha çox məlumat və yeniyetmələrin maraqlarına uyğun konkret nümunələr göstərilir.

Üçüncü qrup gənclər - gənclər yetkinlik yaşına çatdıqda (universitetə başlamış, işə başlayanda və s. vergi ödəməlidirlər), həyatın bu mərhələsinə aid məlumatlar.

TAXEDU web-portalının məqsədlərinə aşağıdakılar daxildir [4]:

1. Gənc Avropa vətəndaşlarının təhsilinə yardım etmək.
2. Daha yaxşı məlumat və təhsil vasitəsilə Avropada vergidən yayınma hallarını azaltmaq.
3. Vergi vasitəsi ilə mümkün olan xidmətlər və imkanları haqqında Avropa vətəndaşlarına məlumat vermək(təhsil, səhiyyə və s.).

TECD(tech data corporation) hər il başlanğıcda təhsil orqanları ilə birlikdə ətrafındakı orta məktəblərdə cədvəllər toplayır. Məktəb iclasları TECD işçiləri tərəfindən işlənmiş və üç əsas hissədən ibarətdir [4]:

- Qısa PowerPoint təqdimatı.

- Vergi gəlirindən maliyyələşdirilən müxtəlif hökumət.

layihələri haqqında video və qısa filmlər.

- Tələbə və müəllimlər ilə canlı müzakirələr, broşuralar, plakatlar və etiketlərin verilməsi.

Azərbaycanda vergi mədəniyyətinə yanaşma və onun yüksəldilməsi üzrə tədbirlər.

Aparılmış tədqiqatlar göstərdi ki,vergi təbliğatı vergi mədəniyyətinin formalaşdırılmasında xüsusi rola malikdir. Yəni düzgün vergi təbliğatı könüllü vergi ödənişi səviyyəsini artırır. Vergi təbliğatı vergi ödəyicisinin vergi öhdəliklərinin düzgün yerinə yetirilməsi üçün maliyyə və vergi orqanlarının zəruri informasiyanın vergi ödəyicilərinə çatdırılmasıdır. İnformasiya dedikdə mövcud vergilər, onların hesablanması və ödənilməsi qaydaları barədə məlumat başa düşülür. Bu istiqamətdə ölkəmizdə Vergilər Nazirliyi yarandığı ilk dövrlərdən bu günə kimi bir sıra işlər görülmüş və hal-hazırda da görülür [1,2,7,8]:

1. Vergi ödəyicilərinin məlumatlandırılması, vergi təbliğatı tədbirlərinin gücləndirilməsi məqsədilə vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılmışdır. Bu mərkəzlərin yaradılması əhaliyə göstərilən xidmətlərin əhatəsi və keyfiyyətini artırmışdır.

2. “Vergilər uşaqların gözu ilə” rəsm və hekayə müsabiqəsi keçirilib: 5-8, 9-12 və 13-17 yaş kateqoriyalarına aid məktəblilər arasında keçirilir, vergilər barədə bilikləri kağız üzərinə köçürürlər.

3. “Vergilər” mövzusunda ənənəvi olaraq keçirilən olimpiada: kompüter vasitəsilə online rejimdə, test üsulu ilə ali məktəblərin tələbə və magistrantları arasında keçirilir.

4. Respublikamızın bir çox tədris mərkəzlərində vergi metodiki kabineti yaradılıb.Yaradılmış vergi metodiki kabineti şagird və tələbələrin vergi mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır.

5. “Vergi dostu”layihəsi. Müəyyən edilmiş kriteriyalar üzrə könüllülük prinsipi əsasında kənd və qəsəbələrdə məktəb müəllimləri arasında bir nəfər “vergi dostu” seçilməklə vergi mədəniyyətinin yüksəldilməsi sahəsində çalışır.


6. Vergi təbliğatının bir digər növü kimi reklam lövhələrini misal göstərə bilərik. Bu reklam lövhələri daim göz önündədir və biz düşünmədən də təhtəlşüur səviyyəsində bizim vergi mədəniyyətimizə təsir edir.7. Televiziya və sosial şəbəkələrdə vergi ödənişləri və əmək müqaviləsinin bağlanması ilə bağlı reklam çarxlarında əvvəllər düşünmədiyimiz məsələlər qabardılaraq, vergi qanunvericiliyinə əməl etməyin nə dərəcə əhəmiyyətli olduğunu görürük.

Vergi ödəyicilərini stimullaşdırmaq məqsədilə vergi güzəştləri tətbiq olunur.01.01.2019 cu ildə vergilər məcəlləsində aparılmış dəyişikliklərə əsasən: Mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75%-i,Kiçik və orta biznes (KOB) klaster, şirkətinin mənfəəti –KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə Startapların “Startap” şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəəti – 3 il müddətinə vergidən azad edilir [10].

Beləliklə, Azərbaycanda vergi mədəniyyətinin təşkilini şərtləndirən amillərə aşağıdakılar daxildir [8,9]:

1. Vergi islahatlarının keçirilməsi.
2. Vergi güzəştlərinin tətbiqi.
3. Vergi inzibatçılığının təkmilləşdirilməsi.
4. Vergi mədəniyyətinin kiçik yaşlardan təbliğ olunmasını təmin etmək.
5. Vergilərin ödənilməsinin zəruriliyinin vətəndaşlara izah olunması.

Bununla yanaşı vergi mədəniyyəti könüllü vergi ödənilməsində xüsusi əhəmiyyətə malikdir (şəkil2). Belə ki,vergi mədəniyyəti milli mədəniyyətin bir hissəsi olmaqla, vergi sistemində dövlətlə vergi ödəyicilərinin qarşılıqlı əlaqəsinin səviyyəsini təcəssüm etdirir.



Şəkil 2. Azərbaycanda illərə görə könüllü vergi ödənişi səviyyəsi.

Mənbə [9]-dan istifadə etməklə müəllif tərəfindən tərtib edilmişdir.

Vergi mədəniyyəti elə bir anlayışdır ki, bu zaman dövlət cəmiyyətin maraqlarını düşünərək öz vergi siyasətini həyata keçirir, ödəyicilər isə öz məsuliyyətlərini anlayaraq vergi öhdəliklərini vaxtında və tam həyata keçirirlər. Lakin dünya təcrübəsinə baxsaq, vergi mədəniyyətinin zəif olmasının əsas səbəbləri kimi aşağıdakılar göstərilir [8]:

1. Vergi ödəyicilərində qorxu yaradan yüksək vergi dərəcələri;
2. Kölgə iqtisadiyyatının yüksək olması.
3. Öz marağını ictimaiyyətin marağından üstün tutmağı.
4. Vergi qanunvericiliyin qeyri-stabil olması.
5. Vergi ödəyicilərinə qarşı düzgün informasiya və təbliğat işinin aparılmaması.
6. Vergi ödəyicilərinin vergi qanunvericiliyini bilməmələri və zəif bilmələri.
7. Vergi qanunvericiliyinin tələblərinə zəif nəzarət.
8. Vergi orqanlarına inamsızlıq.

Bütün bunları əsas tutaraq aşağıdakı nəticəyə gəlmək olar.

NƏTİCƏ

1.İnkişaf etməkdə olan ölkələrdə (İEOÖ) və həmçinində ölkəmizdə insanlar verginin bir yük olduğunu düşünür və bu fikrin yaranmasının qarşısını almaq lazımdır. Lakin İEÖ-də isə tam əksidir. Həmin ölkələrdə hətta vergi dərəcələrinin yüksək olmasına baxmayaraq, insanlar vergilərin ödənilməsinin vacibliyini başa düşürlər.

2.Ölkəmizin inkişafı, yəni dövlət büdcəsinin artırılması vergi mədəniyyətinin yüksəldilməsini daha da aktual edir. Yəni, vergi gəlirləri sayəsində təqaüdlər, müavinətlər,sosial yardımlar və s. ödənilir. Müxtəlif usullarla vergi ödəyicilərini simullaşdırmaqla vergi mədəniyyətinin artırılmasına nail olmaq olar.

3.Vergi mədəniyyəti yüksək olan ölkələrdə vergidən yayınma hallarının sayı azdır,vətəndaşlar vergiləri könüllü ödəyir və bu da həmin ölkələrdə həyat səviyyəsinin,sosial vəziyyətin daha yüksək olması ilə nəticələnir. Buna görə də ölkəmizdə vergi mədəniyyətinin, o cümlədən də verginin mahiyyətinin düzgün öyrədilməsi istiqamətində işlərin daha da genişləndirilməsi vacibdir. Hətta uşaqlara belə vergi mədəniyyətini aşılamaq lazımdır. Çünki onlar millətin gələcəyidir.

4. Ölkəmizdə Avropa ölkələrinin təcrübəsindən,o cümlədən də Taxedu layihəsinin elementlərindən istifadə vacibdir. Bu layihəni ölkəmizdə tətbiq etməklə uşaqlar və gənclərdə vergi

haqqında təsəvvürlərin formalaşdırılması, vergilərin ödənilməsinin vacibliyini və onun əhəmiyyətini vurğulamaq lazımdır.

5.TECD təcrübəsinə əsaslanaraq məktəblilər tələbələr arasında vergilər haqqında seminarlar,təlimlər təşkil etmək,müsabiqələr keçirmək,vergi təbliğatı aparmaq vacibdir.Ölkəmizdə bu cür layihələr keçirilir.Lakin daha intensiv şəkildə keçirmək lazımdır.

6. Müxtəlif üsullarla vergi ödəyicilərini simullaşdırmaq da mühüm məsələlərdən biridir. Bunun üçün ölkəmizdə 01.01.2019-cu ildə Vergilər Məcəlləsində dəyişikliklər aparılmışdır.

7. Səmərəli vergitutma sistemi olmadan, sivil və inkişaf etmiş bir cəmiyyətin yaradılmasını tamamilə həyata keçirmək olmaz. Əgər qərb vətəndaşı bu gün tam vətəndaş hüquqlarına, yüksək həyat standartlarına sahibdirsə, bu, həmin ölkələrdə sağlam vergi mədəniyyəti mövcud olduğu üçündur. Hər bir vətəndaş özünə məxsus payı sistemə düzgün və səylə qatır. Əhalinin vergi mədəniyyətinin səviyyəsi, əhali və dövlət münasibətlərinin qarşılıqlı əlaqəsini,vergi siyasətinin xarakteri və istiqamətini müəyyən edir. Yoxsul bir vergi mədəniyyəti heç vaxt zəngin mədəniyyətin təməli ola bilməz.

ƏDƏBİYYAT SİYAHISI:

1. Musayev A. F., Məmmədov Ə.C. “Ünvanlı vergi xidmətləri”. Bakı-2014.
2. Vergi Mədəniyyəti (əlavələr edilmiş ikinci nəşr). Bakı-2010.
3. www.thenews.com.
4. Avropa Birliyinin rəsmi internet səhifəsihttps://europa.eu/taxedu/news/.
5. Vergi kültürü ve göstergeleri: türkiye üzerine bir değerlendirme Pınar Özdemir -2015.
6. DergiPark Contact rəsmi internet səhifəsihttps: http://dergipark.gov.tr/download/ article-file/ 364907
7. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q.” Xarici ölkələrin vergi sistemi”. Dərslik, Bakı 2015.
8. http://olke.az/news/detail/vergileri-konullu-odeyek-dovlet-terefinden-mueyyen-edilmis-vergileri-odemek-her-kesin-konstitusiya-borcudur-60992/.
9. http://www.taxes.gov.az.
10. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı-2019

Suleymanov Q. S., Aliyeva F. M.

World experience on tax culture, application opportunities and economic results in Azerbaijan

Resume

Purpose of the search - The purpose of the research is to achieve tax culture in our country, based on the tax reforms implemented by developed countries in the tax system.

Methodology - The methodology of research is the economic, social and psychological mechanisms used by the world's leading countries to promote tax culture.

Findings - The results of the research will be the application of the methodology applied by the world practice in tax culture to the Azerbaijani tax system, resulting in an increase in budget revenues and GDP.

Key words: tax culture, tax system, budget, taxpayers, tax authorities, tax laws.

Сулейманов Г.С., Алиева Ф.М.

Мировой опыт налоговой культурности, применимые возможности и экономических результатов в Азербайджане

Резюме

Цель - Целью исследования является достижение налоговой культуры в нашей стране на

основе налоговых реформ, проводимых развитыми странами в налоговой системе.

Методология – экономические, социальные и психологические механизмы, используемые ведущими странами мира для продвижения налоговой культуры.

Результаты -Результатом исследования станет применение методологии, применяемой мировой практикой в области налоговой культуры, к налоговой системе Азербайджана, что приведет к увеличению доходов бюджета и ВВП.

Ключевые слова: налоговая культура, налоговая система, бюджет, налогоплательщики, налоговые органы, налоговое законодательство.